BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ
# MƏCMUƏSİ

№ 08 (17) SENTYABR (EYLÜL) 2007

# AZƏRBAYCANLI MÜHƏDDIS ƏHMƏD İBN HARUN ƏL-BƏRDICI

*Əlimuradov İlkin Ənvər oğlu*[*]

Doğma vətənimiz Azərbaycanın adının tarix boyu hörmətlə anılmasının bir səbəbi də Onun vətənpərvər, layiqli evladları tərəfindən dünya ədəbiyyatının müxtəlif sahələrinə bəxş edilmiş töhfələr, qiymətli abidələr, sənət əsərləri, elmi, ədəbi və dini əsərlər sayəsində olmuşdur. Milli mentalitetinə, adət-ənənələrinə və dininə daim sadiq qalmış azərbaycanlılar şanlı vətənlərinin adını elmin müxtəlif sahələrində layiqincə təmsil etməyi bacarmış və qürurla addımladıqları elm yollarında silinməz izlər buraxaraq adlarını tarixin möhtəşəm lövhələrinə qızıl hərflərlə yazmağa müvəffəq olmuşlar.

İslam dini təşəkkül tapdıqdan sonra çox keçmədən Allahın sonuncu səmavi dini olan bu dinin əbədi xoşbəxtlik günəşi öz nurunu doğma Azərbaycanımızın üzərinə də saçmışdır. İslam dininin haq din olduğunu anlamaqda çətinlik çəkməyən müdrik xalqımız tədricən Allahın bəşəriyyətə ünvanladığı ən son əmr və qadağalarını ehtiva edən bu dinin bütün etiqadlarını, qanun-qaydalarını mənimsəmişdir. Uzun müddət sabiq Sovet Imperiyasının əsarəti altında olduğundan dinini gizli yaşamağa məcbur olmuş Azərbaycan xalqı bu gün yalnız adda deyil, həmdə dini ehkamlara tabe olma baxımından haqlı olaraq İslam dini ilə şərəflənmiş müsəlman xalqlardan hesab olunur. Dünyəvi dövlət kimi tanınan Azərbaycan Respublikasında hər bir azərbaycanlının dini hüquqları toxunulmazdır. Ona verilən din azadlığından səmərəli istifadə edən Azərbaycan evladı isə vəteninin fəxridir.

İslam dini ilə bağlı elmlərin Azərbaycandan qat-qat uzaqlarda yayılmasına, ilk dövürlərdə nəqliyyat vasitələrinin minik heyvanlarından ibarət olduğuna baxmayaraq ümumiyyətlə elmə, xüsusilədə dinə olan sevgisindən, marağından dolayı neçə-neçə Azərbaycan evladı doğma

---

[*] AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun aspirantı

vətənini tərk edərək qərib ölkələrə üz tutmuşlar. Bu səfərlər bəzən müvəqqəti, bəzən isə həmişəlik olmuşdur. Beləliklə onlar müqəddəs amal naminə ömür boyu vətən həsrəti ilə yaşamağa məhkum olmuş, hər bir azərbaycanlı kimi bütün hallarda ölmək üçün vətəni üstün bilsələrdə bəzən bu arzularına belə yetməmişlər.

Bəşər övladına ilk olaraq "oxu" deyə əmr edən aləmlərin Rəbbi, Allah Zulcəlalın Qurani-Kərimin "ən-Nisa" surəsinin 162-ci ayəsində "Lakin onların elmdə qüvvətli (möhkəm) olanları və möminləri sənə nazil edilənə və səndən əvvəl nazil edilənə və səndən əvvəl nazil olanlara inanır, namaz qılır, zəkat verir, Allaha və axirət gününə iman gətirirlər. Biz, əlbəttə, onlara böyük mükafat verəcəyik!" buyurması və Rəsulu Məhəmmədin (s.a.v.) "Elm naminə yola çıxan bir kimsə üçün Allah Cənnətə gedən yolu asanlaşdırar" [7,38] deməsi müsəlmanları elm öyrənməyə ruhlandıran saysız amillərdəndir. Bu çağırışa cavab verən müsəlmanlar dünyanın hansı guşəsində olmalarından asılı olmayaraq dini savadlarını artırmaq üçün ilk dövürlərdə bu sahədə daha çox məşhur olan Ərəb Yarımadası, İraq, Şam və s. kimi dini elm mərkəzlərinin yerləşdiyi ölkələrə səfərlər etmişlər. Məlum olduğu kimi İslam dini ilə bağlı bütün elmlər ləfzi, mənası ilə Uca Rəbbimizə məxsus Qurani-Kərimdən və özündən heçnə söyləməyən, bütün davranışları ilahi vəhyə dayanan Allah Rəsulunun hədislərindən qaynaqlanır. İslam tarixinə nəzər saldıqda müsəlmanların ilk olaraq Qurani-Kərimi daha sonra isə Peyğəmbərin hədislərini ətraflı şəkildə araşdıraraq öyrəndiklərini müşahidə edirik.

İlk dövürlərdə hədis mətinləri ilə bağlı əsərlər yazıldığı halda daha sonralar hədisçilər fəaliyyətlərini bir qədər də hədisləri nəql edən ravilərə yönəltmiş və bu sahədə müxtəlif üslublarda çox qiymətli əsərlər yazmışlar. Gündən-günə inkişaf edən hədis fəaliyyətləri hicri III əsrdə olduqca yüksək səviyyəyə yetişmiş və bu sahədə əldə olunan naliyyətlər səbəbi ilə sözügedən əsr hədis tarixinin qızıl əsri adlandırılmışdır.

Hədis elminin bu səviyyədə inkişaf etməsi, sözügedən sahədə fəaliyyət göstərən hədisçilər üçün yeniliyə gedən yolu kifayət qədər daraltmışdı. Bu dövürdə nəinki məşhur olmaq, hətta müəyyən səviyyədə parlamaq belə yüksək savad və məharət tələb edirdi. Taleyinə məşhurlar arasında məşhur olmaq yazılmış şəxsiyyətlərdən biri də ömrü hədis tarixinin qızıl düvrünə

təsadüf etmiş və gənc yaşlarında doğma yurd-yuvasını elm naminə tərk etmiş həmvətənimiz Əbubəkir Əhməd İbn Harun İbn Rəvh əl-Bərdicidir.

Əldə etməyə müyəssər olduğumuz qaynaqların verdiyi məlumatlara əsasən tam adı Əbubəkir Əhməd İbn Harun İbn Rəvh əl-Bərdici əl-Bərzəi ən-Nisaburi əl-Bağdadi olan azərbaycanlı alim vaxtilə Kür çayı sahilində Bərdə-Dərbənd (Bab əl-Əbvab) karvan yolu üstündə mühüm ticarət məntəqəsi olmuş və haqqında IX-X əsr ərəb səyyahlarından İbn Xordadbeh, əl-İstərxi, İbn Havqəl, əl-Muqəddəsi və b. mütəxəssislərin məlumat verdiyi, [3,c.2,149] qədim Bərdənin 14-18 fərsəxliyində yerləşən orta əsr Azərbaycan şəhəri olmuş Bərdicdə dünyaya göz açmışdır. Haqqında danışılan bölgəyə mənsub ikinci bir müəllifin tanınmadığı bildirilir. [15,24; 4,c.1,314; 17,c.1,449] Əhməd İbn Harun əl-Bərdicinin doğulduğu tarix dəqiq olaraq bilinmir. Onun həyatından bəhs edən qaynaqlarda azərbaycanlı mühəddisin hicri 230/844-cu ildə və ya bundan əvvəl doğulduğu bildirilir. [14,c.8,84; 6,c.6,64;11,c.14,122;12,c.4,6] Hədis elmi ilə bağlı əsərlərin yazılmasının geniş vüsət aldığı, Allah Rəsulunun hədislərinin xüsusi bölgülər əsasında iri həcimli kitablarda toplandığı, bəzi alimlərin hədisçilərlə bağlı araşdırmalar apararaq bu sahədə qiymətli əsərlər yazdığı bir dövürdə dünyaya gəlmiş əl-Bərdici özünü xoşbəxt hesab edə bilərdi. Lakin onun adının əbədiləşməsində əsas rol oynamış amil doğulduğu dövür deyil, yüksək təfəkkürü və bacarığı sayəsində hədis elminə bəxş etdiyi töhfələr olmuşdur. Onun Bərdic şəhərinə mənsub olduğunu adının sonundakı “əl-Bərdici” (Bərdicli vəya Bərdicə mənsub) ifadəsindən də anlamaq mümkündür. Lakin bununla belə azərbaycanlı mühəddis əksər qaynaqlarda həmdə “əl-Bərzəi” kimi təqdim olunurki bu da onun “Bərzəə” adlı şəhərə mənsub olduğunu bildirir. [4,c.1,316;17,c.1,451] Bu məsələ ilə bağlı araşdırma apararkən aydın oldu ki, VIII-IX əsrlərdə mühüm ticarət və mədəniyyət mərkəzi olmuş Bərdə şəhərinin adı fars mənşəli olub ərəb dilində “Bərzəə” kimi də istifadə olunur.[16,122] Göründüyü kimi Bərdic və Bərzəə (Bərdə) şəhərlərinin hər ikisi tarix boyu mübahisəsiz Azərbaycan torpaqları olmuşdur. Azərbaycanlı alimin ilk olaraq Bərdicli kimi təqdim olunması, onun Bərdic şəhərində doğulmuş olmasını təsdiqləyir. Onun Bərdicin yaxınlığında yerləşən Bərzəə şəhərinə mənsub edilməsinə gəlincə isə düşünürük ki, bu mənsubiyyət orta əsrlərdə Bərzəə şəhərinin kifayət qədər inkişaf etməsi və məşhur olmasından irəli gəlmişdir. Beləki əldə etdiyimiz məlumatlara əsasən xilafətin paytaxtı

Bağdad şəhərini Azərbaycanla birləşdirən ticarət yolları həm də Bərdədən keçirdi. Buna görə də Azərbaycanın şimalında şəhərlərarası məsafələr Bərdə şəhərindən hesablanırdı. [3,c.2,145-146]

Araşdırmalarımız nəticəsində məlum olur ki, tarixən onun Bərzəəli olmasına şübhə ilə yanaşanlar da olmuşdur. Bu qənaətə gəlməyimizin səbəbi isə əl-Hüseyn İbn Əhməd İbn Abdulla İbn Bukeyr əs-Seyrəfinin "*Bəzi hafizlərin Əhməd İbn Harun əl-Bərdicinin Bərzəəli olmasını inkar etdiklərini və onu həmin bölgəyə mənsub edənləri təkzib etdiklərini öyrəndim. O, (Əhməd İbn Harun) Bərzəəlidir, Bərdiclidir.*"[16,122] deməsi olmuşdur.

Hicri III əsrin II yarısı sözün əsil mənasında ərəb mədəniyyətinin çiçəklənmə dövrü hesab olunur. Heç şübhəsiz bu dövrə aid mədəniyyət abidələrinin, zəngin ədəbiyyat nümunələrinin yaranmasında İslam dininin büyük rolu olmuşdur. Ərəb mədəniyyətinə zəngin dini ədəbiyyat bəxş etmiş, dinlərinə son dərəcə sadiq İslam üləmasının elmi fəaliyyətlərini araşdırarkən onların bir əsəri ərsəyə gətirmək üçün olmazın əziyyətlərə qatlandıqlarını və hər cür məşəqqətə sinə gələrək lazım gəldikdə uzun məsafələr qət etdiklərini müşahidə edirik. Xüsusən hədis elmi ilə məşğul olanların bəzən bir hədisi dəqiqləşdirmək üçün olduqca narahat nəqliyyat vasitələri ilə ölkələr gəzməsini bir anlığa göz önündə canlandırsaq, bu yolun nə qədər çətin, yolçuların isə nə qədər əmin və etibarlı olduqlarını asanlıqla anlayarıq. Hədis aləminin öndə gələn isimlərinin yalançı mühəddislərə və əsası olmayan hədislərə qarşı tutduqları mövqeləri ilə yaxından tanış olduqda anlayırıq ki, bu insanlar yalnız hədisin mahiyyətini dərk etmiş mühəddislər deyil, həm də Allahın vəhyinin keşiyində durmuş cəsur əskərlərdir.

Səhabələrin dövründə bir səhabənin eşidib, digərinin eşitmədiyi bir hədisi əxz etmək məqsədi ilə vəya müəyyən hədisi dəqiqləşdirmək üçün həyata keçirilən səfərlər tabiun dövründə müxtəlif bölgələrdə məskunlaşmaqla islamın nurunu, Peyğəmbərdən qalan mirası özləri ilə birlikdə həmin bölgələrə aparmış səhabələrə olan təlabatdan irəli gəlmişdir. [7,41]

Sonrakı dövürlərdə meydana çıxmış hədis uydurma cəhdləri, Peyğəmbər ilə heç bir əlaqəsi olmayan hədislərin Ona şamil edilməsi Allah Rəsulunun əmanətlərinə sahib çıxmaqla dinin keşiyində durmağı öz boyunlarına götürmüş müsəlman üləmasını hiddətləndirmiş və onları bu kimi hərəkatlara qarşı çıxmaqla gözlənilən ən böyük təhlükənin qarısını almağa sövq

etmişdir. Bütün bu olanlar öz tərbiyəsini sələflərindən almış növbəti nəslin alim nümayəndələri üçün bir örnək olmuşdur.

Azərbaycanlı mühəddis Əhməd İbn Harun əl-Bərdici də belələrindən biri idi. Dinə olan sədaqəti və elmə olan hərisliyi bütün bu kimi çətinlikləri onun gözündə heçə endirmişdi. Qaynaqlarda əl-Bərdicinin təhsil almaq məqsidi ilə doğma vətəni Azərbaycanı tərk edərək dini mərkəzlərin təşəkkül tapdığı bir sıra ölkələrə səfərlər etməsi ilə bağlı məlumatlarla tez-tez raslaşırıq. Əldə etdiyimiz məlumatlardan anlaşılırki, azərbaycanlı mühəddis Yaxın Şərq ölkələrini gəzmiş Nişapur, Bağdad və Məkkədə yaşamışdır.[11,c.14,122;2,6] Onun adının sonunda ən-Nisaburi, əl-Bağdadi kimi mənsubiyyət bildirən ifadələrin işlədilməsi məhs bu səbəbdən irəli gəlmişdir. əl-Bərdicinin hədislə bağlı müraciət etdiyi şəhərlər arasında Beyrut, Dəməşq, Hums, Misir, Hərran, Kufə və s. şəhərlər də mövcuddur. [6,c.6,64] Tarixi mənbələr əl-Bərdicinin haqqında danışılan müqəddəs amal naminə çox erkən yaşalrında ana yurdunu tərk etdiyini bildirir. Bu həqiqət əz-Zəhəbinin əl-Hakimə istinadən verdiyi məlumatda da öz əksini tapmışdır. əl-Hakim tarix kitabında əl-Bərdicidən söhbət açaraq belə buyurmuşdur: *“O, Məhəmməd İbn əz-Zuhəlinin yanına gələrək həm faydalanmış, həm də faydalandırmışdır. O zaman şeyxlərimiz ondan rəvayətlər əldə etmişlər. Əbu Amr əl-Mustəmlinin xətti ilə onun Əhməd İbn Harun əl-Bərdicini 255-ci ilin səfər ayında Məhəmməd İbn Yəhyanın (əz-Zuhəli) məscidində dinlədiyini oxudum. Şeyximiz Əbu Əli əl-Hafiz onu Məkkədə də dinləmişdir. Güman edirəm ki, o, ömrünün sonuna kimi orada qalmışdır.”* Azərbaycanlı mühəddisdən ağız dolusu danışan əl-Hakim sözlərini: *“Onun dövründə ətraf bölgələrdə yaşamış imamlar arasında seçimlərin daim üzərində durulduğu ikinci bir imam tanımıram”* [11,c.14,122-123] deməklə tamamlamışdır. Yuxarıdakı məlumatdan azərbaycanlı mühəddisin hicri 255/869-ci ildə artıq müəyyən qədər şöhrət qazandığı, elminin bar verməyə başladığı, hətta onun elm axtarışında olması ilə bərabər digər elm həvəskarlarının ondan yararlandığı aydın şəkildə görülür. əl-Bərdicinin hicri 230/844-cu ildə ilk dəfə dünya həyatına qədəm qoyduğu və yuxarıda qeyd olunan səviyyəyə gəlmək üçün bir neçə ilin azlıq etdiyini nəzərə aldıqda, onun çox erkən yaşlarında elm yollarında ilkin addımlarını atmağa başladığı məlum olur. İbn əl-Ədim *“O, gəzib dolaşmış məşhur hafizdir”* [5,c.3,1195] deməklə bir neçə kəlmə ilə əl-

Bərdicinin hədis elminin tələb etdiyi çətinliklərə sinə gələrək yüksək məqama yetişdiyini ifadə etmişdir.

Tarixin önəm verdiyi şəxsiyyətlərdən olan Əhməd İbn Harun əl-Bərdicinin təhsil həyatı ilə bağlı araşdırmalarımızı davam etdirərkən, onun iki dəfə İsfahanı ziyarət etdiyini, təhsil həyatının bir qismini də İsfahanda keçirdiyini və bu bölgənin tanınmış alimlərindən faydalandığını təsbit etdik. [14,c.2,164/c.3,447] Görkəmli azərbaycanlı mühəddis Əhməd İbn Harun əl-Bərdicinin təhsil həyatını izlədiyimiz yol bizi bir başa onun dərs aldığı müəllimlərinin elm ocaqaqlarına gətirib çıxardı. Araşdırmalarımız nəticəsində məlum olduki, o, elm öyrənmək üçün bir çox mütəxəssislərin qapısını döymüş və müxtəlif elm mərkəzlərində dövrünün məşhur şeyxlərindən, ustadlardan dərs almış, hədis əxz etmişdir. əl-Bərdicinin dərs aldığı müəllimlərin sayı xüsusunda, onun həyatından bəhs edən qaynaqlarda konkret say bildirilməsə də əldə etdiyimiz məlumatlara əsasən otuzdan çox müəllim ona elm aşılamış və onun rəvayət məmbəyi olmuşdur.

əl-Bərdicinin bir mühəddis kimi yetişməsində ən önəmli rollardan birini oynamış və ona hədis elminin incəliklərini aşılamış müəllimlər sırasında Əbu Səid əl-Əşəcc (167/783-257/873), Əbu Zura ər-Razi (200/814-264\878), Məhəmməd İbn Musa (v. 324/936), Məhəmməd İbn İshaq əs-Səğani (180/793-270\883), Əbu İshaq İbrahim(200/813-277/890 vəya 285/898), Cəfər İbn İsa İbn Nuh, Məhəmməd İbn Abdulla(v. 264/877), Ər-Rəbi İbn Süleyman (174/787-270/883) və başqaları vardır. [16,9;15,3]

Süleyman İbn Əhməd İbn Eyyub əş-Şami əl-Ləhmi (260/871-360/971), Həsən İbn Əhməd İbn Saleh əs-Səbii (v. 371/981), Məymun İbn İshaq(260/871-351/962), İbn Nəcm (v.350/961) və s. kimi mühəddislər isə əl-Bərdicinin elm ocağının yetirmələridir. [16, 10;15,3]

əl-Bərdicinin elmi şəxsiyyətindən danışan İslam üləması, onun barəsində daim müsbət fikirdə olmuş, mənfi fikir söyləməmişdir. Bəzi alimlərin əl-Bərdicinin şəninə söylədiyi gözəl sözlərə diqqət yetirdikdə onun yalnız sözünü demiş alim deyil həmdə əqidəsinə sadiq, səmimi insan olduğu anlaşılır. Aşağıda qeyd olunan təriflər əl-Bərdicinin hədis aləmindəki yerini və ona olan inamı bir daha aydın şəkildə biruzə verir.

*"O, əmin, sözünə istinad edilən, özünə etibar olunan biridir"*( əd-Daraqutni) [11,c.14,123] *"O, dürüst hafizlərdəndir"* ( Saleh İbn Əhməd əl-Hafiz) [16,9] *"O, hifzi ilə seçilən hədis hafizlərindən idi"*(Əhməd İbn Kamil

əl-Qazi) [16,9] *"O, etbarlı, kübar, üstün və zehni açıq biri idi"*( əl-Xətib əl-Bağdadi) [16,9] *"O, etibarlı, hafiz, öndərdir"*( əz-Zəhəbi) [11,c.14,123] *"O, hədis hafizlərindən və bu sahənin yüksək nüfuz sahiblərindəndir."* (Əbu Şeyx əl-İsbəhani) [14,c.4,84] *"O, hafiz, imam, etibarlı və nəcib insandır"*( əs-Suyuti) [13,317] *"O, faydalanmış və faydalandırmışdır."* (Əbu Abdulla Məhəmməd ən-Nisaburi) [2,6] *"Şəhərin ən öndə gələn alimlərindən biri idi"*( İbn İmad) [12,c.4,6]

Göründüyü kimi nəyin bahasına olursa olsun düzə düz, əyriyə əyri deyən bu görkəmli elm sahiblərinin dilindən söylənilən təriflər dürüstlük, etibarlılıq, nəciblik, hafiz, alim, zehni açıq və s. kimi xüsusiyyətləri ehtiva etməklə əl-Bərdicinin həm insani, həm də elmi keyfiyyətlərini səmimi şəkildə əhatə etmişdir.

Öz səhifələrində Əhməd İbn Harun İbn Rəvh əl-Bərdicidən fəxarətlə söhbət açan məşhur qaynaq müəlliflərinin verdiyi məlumatlara əsasən şərəfli ömür yolu keçmiş azərbaycanlı mühəddis hicrətin 301/914-ci ilində ayların sultanı mübarək Ramazan ayında, beşiyində elm laylası dinlədiyi əfsanəvi Bağdad şəhərində əbədiyyətə qovuşmuşdur. [11,c.14,123;8,c.2,247;13,316] Doğma Azərbaycanımızın bayrağını layiqli övlad kimi zirvələrdə dalğalandırmağı bacarmış həmvətənimizin adını hörmətlə anır və Uca Allahdan ona rəhmət diləyirik.

Əhməd İbn Harun əl-Bərdicinin yüksək bacarığının, elmi zəkasının məhsulu olan və onun yaradıcılıq fəaliyyətindən xəbər verən əsərləri xüsusunda tədqiqat apararkən həmvətənimizin tarixə məlum olan altı ədəd kitabının olduğu aydın oldu. [15,6] Bu əsərlər aşağıdakılardır:

1-*əl-kəbair* kitabı

2-*Tabaqat əl-əsma əl-mufrədə min əs-səhabə və ət-tabiin və əshab əl-hədis* kitabı

3-*Mərifət əl-muttəsil min əl-hədis və əl-mursəl və əl-məqtu və bəyan ət-turuq əs-səhihə* kitabı

4-*əl-Mərasil* kitabı

5-*əl-Fəvaid* kitabı

6-*əl-Cərh və ət-Tədil* kitabı

Çox təssüf ki, azərbaycanlı mühəddisdən xatirə qalan bu əsərlərin hamısı dövrümüzə qədər gəlib çatmamış, əyər çatmış olsa belə müasir hədis elminə indiyə qədər na məlum qalmışdır.

Yuxarıda qeyd olunan əsərlərdən birincisi əlyazma şəklində olub, Səudiyyə Ərəbistanı Krallığının Məlik Səud Universitetində çalışan tədqiqatçı alim Məhəmməd İbn Turki ət-Turki tərəfindən təhqiq olunmuş lakin böyük ehtimalla hələ çap olunmamışdır. Biz həmvətənimizin İslam dininin qətiyyətlə qadağan etdiyi böyük günahlardan bəhs edən bu əsərinin elektron variantını əldə etmişik və kitabla bağlı fikirlərimizi əsasən onun üzərində qurmuşuq. [15]

əl-Bərdicinin dövrümüzə qədər gəlib çıxmış və digərləri ilə müqayisədə daha şanslı olan əsəri isə yuxarıdakı siyahıda ikinci yerdə qeyd olunan əsərdir. Nadir adlardan bəhs edən bu əsəri daha şanslı hesab etməyimizin səbəbi onun həm üç əlyazma nüsxənin dövrümüzə qədər gəlib çıxmasından, həm də düz iyirmi il bundan əvvəl, 1987-ci ildə çap olunaraq işıq üzü görməsindən irəli gəlmişdir. Sözügedən əsər Səkinə əş-Şihabi adlı bir xanım tərəfindən təhqiq olunaraq tədqiqat, tərcümə və nəşr müəssisəsi olan "Təlas" tərəfindən çap olunmuşdur.[16]

Yerdə qalan digər dörd əsərlə bağlı isə onların adlarından başqa əlavə heç bir məlumata rast gəlmədik.

Beləliklə araşdırmalarımız nəticəsində məlum oldu ki, əl-Bərdicinin tarixə məlum altı əsərindən yalnız ikisi dövrümüzə qədər gəlib çıxmış və hətta onlardan biri çap olunmuşdur. Yerdə qalan dörd əsər isə yalnız müxtəlif mənbələrdə adını qoruya bilmişdir. "Mərifət əl-muttəsil min əl-hədis və əl-mursəl və əl-məqtu və bəyan ət-turuq əs-səhihə" kitabı bu əsərlərdən adına müəyyən mənbələrdə digər üç əsərə nisbətən daha çox rast gəlinən əsərdir.

Həmvətənimizin keçdiyi şərəfli ömür yolu, elmdə əldə etdiyi uğur və müvəffəqiyyətlər, hədis dünyasına qazandırdığı orjinal əsərlər [15/16] əslində onun bu dünyanın layiqli vətəndaşı olmasından xəbər verir. Lakin bütün bunlarla yanaşı onun hədis aləmində hansı boşluğu doldurduğunu və hansı sahənin təkmilləşməsində yaxından iştirak etdiyini araşdırmaqda fayda vardır. Bu istiqamətdə apardığımız araşdırmalardan məlum oldu ki, azərbaycanlı alim hədis elminin rical sahəsində daha çox məşhur olmuşdur. Onun bu sahədə daha çox uğur qazanması qələmə aldığı əsərlərdən də aydın görülür. Beləki, əl-Bərdicinin nadir adlardan [16] bəhs edən əsəri məhs hədis rəvayət edən şəxsləri əhatə etməklə onun digər əsərləri ilə müqayisədə ən çox uğur qazanmış və ən çox danışılan əsəri olmuşdur. Lakin

həmvətənimizin ömrünü həsir etdiyi hədis sahəsində əldə etdiyi elm bu əsərin ehtiva etdiyindən qat-qat çox olmuşdur. Onun tərəfindən qələmə alınmış əsərlərin hədis elminin müxtəlif sahələrini əhatə etməsi bu həqiqəti təsdiqləyən ilkin dəlillərdəndir. Məsələn onun İslam dininin olduqca önəmli mövzularından biri olan Allah Təalanın qətiyyətlə qadağan etdiyi günahlar mövzusuna [15] dair hicri III-cü əsrdə ilk müstəqil kitab yazması və həmin kitabda Allah Rəsulundan haqqında danışılan günahlar xüsusunda varid olmuş hədisləri toplaması hədis fəliyyətinin digər istiqamətidir. Bu müəyyən mövzuya təhkim edilmiş hədislər toplusudur. Habelə haqqında yetərli məlumatlar əldə etmək imkanına malik olmadığımız “Mərifət əl-muttəsil min əl-hədis və əl-mursəl və əl-məqtu və bəyan ət-turuq əs-səhihə” kitabı dövrümüzə qədər gəlib çıxmasa da onun adından məlum olur ki, onun əhatə etdiyi mövzu bundan əvvəlki əsərlərin əhatə etdiyi mövzulardan tamamilə fərqlənir. Beləki, bu əsər hədis üsulu ilə əlaqədar olmuşdur.

Azərbaycanlı mütəfəkkir əl-Bərdicinin hədis aləmində malik olduğu yüksək məqamı ifadə edən digər bir göstərici isə ondan sonra elm dünyasında yetişmiş alimlərin, tarixçilərin öz əsərlərində müəyyən mövzularda ona istinad etməsidir. Həmvətənimizdən faydalanmış məşhur qaynaq müəlliflərinin arasında “Tarix Bağdad” əsərinin müəllifi əl-Xətib əl-Bağdadi (v.463/1071), “Mizan əl-itidal” əsərinin müəllifi əz-Zəhəbi (v.748/1347), “Lisan əl-mizan” əsərinin müəllifi əl-Əsqalani (ö.852/1448) də vardır. Qeyd olunan bu müəlliflər əl-Bərdicinin hədis sahəsindəki dəyərləndirmələrinə və rical haqqındakı görüşlərinə müraciət etmişlər. Tahir əl-Cəzairi (ö.1338/1920) isə “təvcih ən-nəzər” adlı əsərində əl-Bərdicinin həm munkər hədis mövzusundakı görüşünə yer vermiş, həm də rical haqqındakı dəyərləndirmələrinə tez-tez işarə etmişdir.

## RESUME

**The Hadith Scientist of Azerbaijan Ahmad ibn Harun al-Bardichi.**

Azerbaijanian hadith scientist Abubakir Ahmad ibn harun ibn Ravh al-Bardichi al Barzai an-Nishapuri al Bagdadi was born in Bardich, the middle age city of Azerbaijan situated near the ancient Barda. It is informed that there was no second writer belonged to that area. The birth date of Ahmad ibn Harun al-Bardichi is still unknown. According to the sources deal with his life Azerbaijanian scientist was born in 844/230 h. or earlier. He had visited near eastern countries, lived in Nishapur, Bagdad and Makka. Among his traveling countries for hadith there were Bayrut, Damashg, Hums, Egipt, Harran, Kufa etc. According to the historical sources he had left his native land very early because of sacred purpose. Ibn al Adim says: “He is famous traveled Hafiz”. By this way he had explained that al-Bardichi stuck out his chest to the difficulties of hadith science and reached to the top of this science. He had visited many professionals to learn this science and was taught by famous sheikhs in different science centers and narrated hadith. The famous source authors written proudly about Ahmad ibn Ravh al-Bardichi informed that Azerbaijanian scientist was died in mythical Bagdad in 914/301 h. during the holy Ramadan. He had six books known by the history and two of them came to our time and one was printed.

## Азербайджанский учёный по хадисам Ахмед Ибн Харун аль-Бардиджи

Азербайджанский учёный по хадисам Абубекир Ахмед Ибн Харун Ибн Рахв аль-Бардиджи аль-Барзаи ан-Нисабури аль-Багдадиди появился на свет в средневековом Азербайджанском городе Бардидже, находившемся неподалёку от древней Барды. Существуют сведения о том, что в вышеназванном регионе не был известен второй автор. Точная дата рождения Ахмеда Ибн Харуна аль-Бардиджи неизвестна. В источниках, в которых говорится о его жизни, есть сведения о том, что учёный родился в 230/844 году по календарю хиджры или раньше. Он совершил путешествия в страны Ближнего Востока, жил в Нишапуре, Багдаде и Мекке. Среди стран, к которым он обращался по поводу хадиса, есть и такие страны, как Бейрут, Дамаск, Гумс, Египет, Харран, Куфа и др. В исторических источниках даются сведения о том, что во имя святой идеи аль-Бардиджи покинул свою родину в очень раннем возрасте. Сказав «Он – много путешествовавший, знаменитый хафиз», Ибн аль-Адим в нескольких словах выразил то, что он, преодолев трудности хадисской науки, достиг вершины. Для изучения науки он обратился ко многим специалистам и получил уроки от знаменитых шейхов и профессионалов в различных научных центрах того времени, а также освоил хадисы. По сведениям авторов, которые на страницах своих произведений с гордостью повествуют об Ахмеде Ибн Харуне Ибн Рахве аль-Бардиджи, азербайджанский мыслитель, прошедший славный жизненный путь, предал свою душу земле в 301/914 году по календарю хиджры в священном месяце Рамазан в легендарном городе Багдаде, в котором он слышал колыбель науки. У него есть шесть книг, которые известны истории, две из которых дошли до нашего времени, а одна была напечатана.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1-**Qurani-kərim**

2-Məmmədov Z., **Orta əsr Azərbaycan filosof və mütəfəkkirləri** , Azərbaycan Dövlət nəşriyyatı, Bakı-1986

3- **Azərbaycan Sovet Ensiklopediyası**, 2-ci cild, Bakı-1978

4 - **الأنساب، للإمام السمعاني**، عبدالكريم بن محمد (ت562هـ)، تعليق عبدالله البارودي دار الكتب العلمية، بيروت، الطبعة الأولى 1408 – 1988م.

5- **بغية الطلب في تاريخ حلب**، لابن العديم: عمر بن أحمد (ت660هـ)، تحقيق د. سهيل زكار، دار الفكر، بيروت، لبنان

6- **تاريخ دمشق**، لابن عساكر:علي بن الحسن الشافعي (ت571هـ)، تحقيق عمرو غرامة العمروي، دار الفكر، بيروت، الطبعة الأولى، 1415هـ.

7- **تدوين السنة النبوية نشأته و تطوره من القرن الأول إلى نهاية القرن التاسع الهجري** , للدكتور محمد بن مطر الزهراني, مكتبة الصديق-1412

8- **تذكرة الحفاظ** لأبي عبد الله الذهبي , حيدراباد 1955/1375

9- **جامع بيان العلم و فضله** لإبن عبد البر, دار الكتب العلمية , بيروت

10-**الرحلة في طلب الحديث** للخطيب البغدادي, دار الكتب العلمية, بيروت

11- **سير أعلام النبلاء**، للإمام الذهبي، محمد بن أحمد (ت748هـ)، تحقيق شعيب الأرنأوط وآخرين، مؤسسة الرسالة، بيروت، الطبعة الأولى.

12- **شذرات الذهب في أخبار من ذهب**، لابن العماد الحنبلي (ت1089هـ)، تحقيق محمود الأرنأوط، دار ابن كثير، دمشق، الطبعة الأولى 1406هـ.

13- **طبقات الحفاظ** للسيوطي, بيروت 1983/1403

14- **طبقات المحدثين بأصبهان**، لأبي الشيخ الأصبهاني (ت369)، تحقيق عبدالغفور البلوشي، مؤسسة الرسالة، بيروت الطبعة الأولى 1408هـ.

15- **كتاب الكبائر** للحافظ أبي بكر أحمد بن هارون البرديجي تحقيق: د. محمد بن تركي التركي

16- **كتاب فيه طبقات الأسماء المفردة من الصحابة و التابعين و أصحاب الحديث**, تأليف أبي بكر أحمد بن هارون بن روح البرديجي ت.301 هـ. حققته و قدمت له سكينة الشهابي, طلاس للدراسات و الترجمة و النشر 1987

17- **معجم البلدان**، لياقوت بن عبدالله الحموي (ت626هـ)، تحقيق فريد الجندي، دار الكتب العلمية، بيروت، الطبعة الأولى 1410هـ.

18- **الموضوعات** لإبن الجوزي, المكتبة السلفية, المدينة